“NAXÇIVAN” UNİVERSİTETİ / ELMİ ƏSƏRLƏR/ 2019, № 1
“NAKHCHIVAN” UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2019, № 1
УНИВЕРСИТЕТ “НАХЧЫВАН”/ НАУЧНЫЕ ТРУДЫ/ 2019, № 1

**UOT 37(091)**

**SƏBUHİ İBRAHIMOV**
“Naxçıvan” Universiteti
s.ibrahimov71@mail.ru

# PEDAQOJİ FİKİR TARİXİNDƏ ƏXLAQİ DƏYƏRLƏR BARƏDƏ İSLAMİ GÖRÜŞLƏRİN YERİ

*Məqalədə əxlaq tərbiyəsi məsələləri və əxlaqa verilən yüksək dəyərlər özünün hərtərəfli şərhini tapmaqla yanaşı, pedaqoji fikir tarixində əxlaqi dəyərlər barədə islami görüşlərin yeri, islamın müqəddəs kitabı “Qurani-Kərim”in, Həzrət Məhəmməd (əleyhis-salam)ın ibrətamiz kəlamlarının, Həzrət Əli (əleyhis-salam)ın və digər görkəmli alim və mütəfəkkirlərin tərbiyə ilə bağlı söylədikləri fikirlərin tədqiq və təhlilinə də geniş yer verilmişdir.*

*Qeyd olunmuşdur ki, “Qurani-Kərim” həm də pedaqoji fikir tarixində ən dəyərli mənbədir. Bu günə qədər alimlər, ilahiyyatçılar, filosoflar və pedaqoqlar onu müxtəlif aspektlərdə tədqiq etsələr də, hələ də tam tədqiq olunmamışdır.*

***Açar sözlər:*** *Əxlaq, islam, tarix, tərbiyə, pedaqogika*

Əxlaq cəmiyyətdə davranış qaydalarını nizamlayan mövcud normalar toplusudur. İnsan cəmiyyəti zaman keçdikcə inkişaf edir və eyni zamanda əxlaq normaları da dəyişir. Həmçinin “Əxlaq, insanlar arasındakı münasibətləri xeyir, şər, yaxşılıq, pislik, xoşbəxtlik, bədbəxtlik, ədalət, ədalətsizlik, dostluq, düşmənçilik, dünya istəkləri, axirət istəkləri, arzu edilən, arzu edilməyən və sair bu kimi bir sıra kateqoriyalardan istifadə etməklə tənzimləyir, qaydaya salır” (8, 24). Ümumbəşəri mahiyyət daşıyan sadə davranış normaların, cəmiyyətin min illər boyu inkişafı prosesində hər cür bəşəri birgəyaşayış dəyərlərini əhatə edir. Bəşəriyyət tarixində, keçmiş dövrlərdə və hal-hazırda yetişməkdə olan gənc nəslin tərbiyəsinə, xüsusilə də əxlaqi cəhətdən formalaşmasına həmişə böyük əhəmiyyət verilmişdir. Bu barədə böyük mütəfəkkirlər tərəfindən çoxlu monoqrafiya və araşdırmaları vardır. Onlara istinad etmək isə zəruridir.

Dinimizin müqəddəs kitabı “Qurani-Kərim”də əxlaq tərbiyəsi məsələləri və əxlaqa verilən yüksək dəyərlər özünün hərtərəfli şərhini tapmışdır. “Qurani-Kərim”də əxlaq dinin əsas təməl daşı, insanlığı, dünyanı öz üzərində saxlayan dirəklərdən biri hesab edilmişdir. İslamda tərbiyənin məqsədi sadəcə uşaqlara gözəl əxlaq və faydalı biliklər verməkdən ibarət deyil. “Qurani-Kərim” əxlaqi davranışların və onun insanın formalaşmasında, kamilləşməsində və şəxsiyyət kimi inkişafında göstərdiyi təsiri bizə göstərən ən dəyərli xəzinədir. Bəşəriyyətdə ən yüksək əxlaqi keyfiyyətlərə malik olan şəxslər danılmazdır.

**“Şübhəsiz ki, sən böyük bir əxlaq üzərindəsən!”** (1, Qələm – 4) deyə sevimli peyğəmbərimiz Həzrət Məhəmməd (əleyhis-salam)a xitabən buyurulmuşdur.

**Məqalə tarixçəsi:**
Göndərilib: 17.02.2019, qəbul edilib: 22.03.2019

“Qurani-Kərim”in bütün ayələri tərbiyəvi və əxlaqi əhəmiyyət daşıyır. İslam tərbiyəsi ümumbəşəri əxlaqın tərbiyə edilməsini nəzərdə tutur. O ancaq dini hisslərin, dini şüurun və dini əxlaqın aşılanmasını deyil, eyni zamanda vətənpərvərlik və beynəlmiləlçilik hisslərinin formalaşdırılması, dini və dünyəvi elmlərin öyrədilməyə dair İlahi göstərişlərin məcmusudur. “Qurani-Kərim”də bizə aşılanan gözəl əxlaqi prinsiplər də var. İnsanlar xoşbəxt olmaq üçün bu prinsiplərə əməl etməlidirlər. “Qurani-Kərim” ata-anaya gözəl qayğı göstərmək, qohum-əqrəbaya, yoxsul və kimsəsizlərə kömək etmək, israfçılıqdan uzaq olmağa, yetimin malına göz dikməməyə çağırır. “Qurani-Kərim”də qeyd edilir ki, insan heç kimə zərər verməməli, sevgi, hörmət, bərabərlik, qardaşlıq, doğru-dürüst, ədalətli olmaq, yardımsevər, qaynayıb-qarışma kimi işləri layiqincə yerinə yetirməli, çalışqan və səxavətli olmalıdır. Söylənən bu gözəl əxlaqi keyfiyyətlər insanları dünya və axirət səadətinə qovuşdurur. Allahın qoyduğu ölçülərdən kənara çıxmamaq, həmişə yaxşılıq etmək, sözünün üstündə durmaq, namuslu və həyalı olmaq da “Qurani-Kərim”in ən çox dəyər verdiyi əxlaqi keyfiyyətlərdir. Allah insanların din, dil və irqi ayrı-seçkiliyi olmadan bir-biriləri ilə ədalətli davranmalarının tərəfdarıdır. Əxlaqı gözəl olanın daxili aləmi də zəngin olur. Prof. F.Rüstəmov “Pedaqogika tarixi” kitabında yazır ki, Peyğəmbərimiz əxlaq barəsində belə demişdir: “Allah məni bir müəllim olaraq göndərdi, mən gözəl əxlaqı tamamlamaq üçün göndərildim” (6, 133).

Peyğəmbər islam dininin məhz insan əxlaqını kəramətləndirmək üçün gəldiyini söyləyir və öz vəzifəsini də bunda görürdü. **“İslamda insanların mənəvi qiymətləri sahib olduqları əxlaqa görədir”** (2, 41).

Həzrəti Məhəmməd peyğəmbərə (s.ə.s.) sual etmişlər:

- “Ya Rəsulullah, ən sevimli qul hansıdır?

**- Əxlaqı gözəl olan!**

- Özünüzün sevdiyiniz, qiyamətdə, məşhərdə Sizinlə kim ola bilər?

**- Əxlaqı gözəl olan!**

- Axirətdə insan üçün ən böyük dəyər nədir?

**- Axirətdə insan üçün ən böyük dəyər tərəziyə qoyulan əxlaqdır!**

- Din nədir?

**- Yaxşı əxlaq!**

- Ən fəzilətli əməl nədir?

**- Yaxşı və xoş əxlaq!**

**- Allah hər kəsə xoş əxlaq və gözəl sifət veribsə, onu atəşlərə yem etməz!**

**- Günəş buzu əritdiyi kimi, yaxşı əxlaq da günahı yox edər!**

**- İslam gözəl əxlaqdır, gözəl əxlaq dinin yarısıdır!**

**- Gözəl əxlaq dostluq ipini möhkəmlədər!**

**- Pis əxlaq bağışlanmayan günahdır”** (12, 54-55).

Həzrət Məhəmməd Peyğəmbər (əleyhis-salam) buyurur: **“Ey insan, (Allah sənin əxlaqını gözəlləşdirsin) gözəl əxlaq sahibi ol ki, onun hər iki dünyada böyük faydası var. Həya insan üçün dünya və axirətdə bəyənilən ən gözəl əxlaqi sifətdir. Din ancaq öyüddür, nəsihətdir. Mən sizə xoşəxlaqlılığı öyrətmək üçün peyğəmbər olmuşam”** (5, 224).

İslam elm və mədəniyyətinin yayılması hər yerdə, o cümlədən Azərbaycanda xalqın tərəqqisinə və inkişafına səbəb oldu. Prof. Z.Qaralov İslamın elmin və mədəniyyətin inkişafına böyük təsir etdiyini belə qeyd edir: “İslam mədəniyyətinin, islam mənəviyyatı və elminin sürətlə yayılması, dünyanın bir çox xalqlarının həyatında, dünyagörüşündə, məişətində dönüş yaratdığı kimi, Azərbaycan xalqının inkişafında da köklü dəyişikliklərə səbəb oldu. Elmin, maarifin, mədəniyyətin, bütövlükdə həyat tərzinin yeni, daha mükəmməl əsaslar üzərində qurulması prosesi başladı. Ailə-nikah, valideyn-övlad, insan-cəmiyyət münasibətləri təzələndi. Tamamilə yeni prinsiplə qurulan təhsil müəssisələri-ibtidai məktəblər, peşə məktəbləri, mədrəsələr əhalinin bütün təbəqələrinin maariflənməsinə imkan yaradırdı. İslam elmi-pedaqoji təfəkkürdə əsaslı dəyişiklik əmələ gətirdi” (3, 36).

Araşdırmalarda bir daha aydın olur ki, pedaqoji fikir tarixində əxlaqi dəyərlər barədə islami görüşlərin yeri, islamın və müqəddəs kitabımız “Qurani-Kərim”in tədqiq və təhlili geniş bir sahənin mövzusudur. İslam bütövlükdə bir elmi dünyagörüşü sistemidir. Kainatın yaranması, inkişafı, insanın mahiyyəti, Yer kürəsindəki bütün varlıqların canlı və cansız aləmin hərəkəti barədə islam elminin özünəməxsus anlayışları, qanun və qanunauyğunluqları, nəzəriyyələri var. Bunların bir çoxu bugünkü təbiət və cəmiyyət qanunları ilə uyğunluq təşkil edir. İslam elmi yarandığı ilk dövrdən məsələ belə qoyulub: canlı varlıqların ən üstün olanı insandır. “Qurani-Kərim”də deyilir: ***“Biz, Adəm övladını şərəfli və hörmətli etdik,.. və yaratdığımız məxluqatın çoxundan xeyli üstün etdik”*** (1, İsra – 70).

Şərəfli və hörmətli xəlq olunmuş insan əxlaq normalarına əməl edərsə mömin sifətində formalaşar. Möminin qəlbi-ürəyi isə dünyaya bərabər və ya ondan üstün olar. Necə ki, həzrəti Məhəmməd (əleyhis-salam) “Hədisi-Qüdsi” kitabından nəql edərək Allahın yerə və göyə sığmayaraq mömin qulun qəlbinə sığacağı haqqında buyurur: **“Mən göylərə və yerə sığmaram, ancaq mömin qulumun ürəyinə sığaram”** (9, 64).

Həmçinin əxlaqi dəyərlərin pedaqoji fikir tarixində qoyuluşu məsələsini həzrət Əli əleyhis-salam yaradılmış məxluqatın çoxundan xeyli üstün insan varlığının olduğunu qeyd etmişdir: **“Sanarsan ki, sən kiçik bir varlıqsan, halbuki səndə böyük bir aləm düzülmüşdür”** (9, 63).

Professor Z.Qaralov “Tərbiyə” kitabında isə əxlaqi dəyərlərin pedaqoji fikir tarixində qoyuluşu məsələsi haqqında yazır: “İlahiyyat alimlərinin tədqiqatlarına görə İslam elmi müsəlmanların öyrənmələri vacib sayılan bilgilər məcmusudur. İslam elmi 2 hissədən ibarətdir: din bilgiləri və fənn bilgiləri. Fənn bilgilərinə hikmət deyilir. Bu bilgilər haqqında Məhəmməd peyğəmbər buyurub ki, hikmət, müsəlmanın qeyb olmuş malı kimidir. Onu harada tapsa alsın. Bu fikir fənn bilgilərini öyrənməyi əmr edir. Din bilgilərinin əsasında 20 elm var ki, bunlardan səkkizi yüksək, on ikisi yardımçı elmlər hesab olunur. Əxlaq elmi yüksək elmlərin sırasına daxildir. Deməli, əxlaq təkcə bizim indiyə qədər başa düşdüyümüz kimi insani keyfiyyət göstəricisi deyil, eyni zamanda din elminin, ümumilikdə İslam elminin əsas tərkib hissəsi olmaqla, müstəqil elmi sistemdir. Əlaəddin Əli ibn Əmrullah və Şeyx Məhəmməd Hadiminin kitablarından seçmələr əsasında tərtib olunmuş «İslam əxlaqı» kitabında əxlaq

elminin mahiyyəti açılmış, «gözəl əxlaq» və «pis əxlaq» anlayışlarının çox geniş şərhi verilmişdir" (3, 117).

Bu qənaətə gəlmək olar ki, hər bir bəşər övladının əxlaqi dəyərləri və islam bilgilərini lazımi qədər öyrənməsi vacibdir. Bununla əlaqədar İslam alimləri də bir neçə kitab yazıblar ki, bu da ümumbəşəri qanunlarla tənzimlənmişdir. Bunlardan ən məşhuru 5 islam aliminin yazdığı kitablar hesab olunur:

1. Məhəmməd Nəsirəddin Tusi "Əxlaqi Nasiri"
2. Cəlaləddin Məhəmməd Divani " Əxlaqi Cəlali"
3. Heratlı Hüseyn Vaiz Kaşifi "Əxlaqi tühsini"
4. Məhəmməd Hadimi "Bərika"
5. Əli bin Əmrullah "Əxlaqi Nasiri".

Bu əsərləri tədqiq və təhlil edərkən görürsən ki, bu alimlərin fikri nə qədər zəngindir. Onların fikrinə görə, Allah insanda əsas üç şey yaratdı: ağıl, qəlb və nəfs. Bu üç varlığı sahələrə (elektrik, maqnit, elektromaqnit, cazibə, nüvə sahələrinə) bənzətmək, onlarla müqayisə etmək olar. Sahələr öz varlıqlarını qarşılıqlı təsir zamanı aşkar edərlər. Ağıl, qəlb və nəfs də belədir. İnsanlıq dərəcəsinə çatmaq, saf əxlaqlı şəxsiyyət olmaq istəyən hər kəs nəfsini daim zəiflətməyə çalışmalıdır.

Nəfsin zəifləməsi qəlbi gücləndirər. Zəif nəfs qüvvətli qəlbi aldada bilməz. Bu qanunauyğunluğu gözləmək təmiz əxlaqlı gənclərin yetişməsinə şərait yaradır. Əxlaqi dəyərlərin pedaqoji fikir tarixində qoyuluşu ilə yanaşı "Qurani-Kərim"də də əxlaq təliminə ən geniş yer verilmiş və iki məqsədlə tətbiq edilməsi öz əksini tapmışdır:

1. Səhv yoldan çəkindirmək.
2. Düz yolla inkişafı sürətləndirmək (və ya inkişafa sövq etmək).

Səhv yoldan çəkindirməyə aiddir: hədə, qorxutma, çağırış, lənətləndirmə, xəcalət, öyüd-nəsihət, moizə, məsləhət, anlatmaq, ehkam, tənbeh, nəzərə çatdırmaq, töhmət, xəbərdarlıq, təcridetmə, cərimə. Bunlar bir növ cəza kimi tətbiq olunurlar. Cəzanın ən ağır forması cismani məhv etməkdir. Cinayətkarı məhv etməkdə məqsəd cəmiyyəti müəyyən təhlükədən qurtarmaqdan ibarət olmuşdur. Qorxutma vasitələri kimi, Allahın qəzəbi, qiyamət günündəki mühakimə, cəhənnəm əzabı, xalqın qəzəbi və s.- dən istifadə edilir.

Düz yolla inkişafı sürətləndirməyə aiddir: Haqqın haqsızlarla mübarizəsində islam dininin, islam ideologiyası və mənəviyyatının gücünə bərabər tutula biləcək heç bir qüvvə olmaması fikri. Ona görə də indiki kəskin mübarizədə islam mənəviyyatını rəhbər tutmaqla, dünyada haqqın üstünlük qazanacağına ümid, inam daha çoxdur.

"Qurani-Kərim" zəngin əxlaq mənbəyidir. Bu günə qədər alimlər, ilahiyyatçılar, filosoflar və pedaqoqlar onu müxtəlif aspektlərdə tədqiq etsələr də hələ də tam tədqiq olunmamışdır. "Qurani-Kərim"dəki tərbiyəvi, əxlaqi fikirlərin gənc nəslə ötürülməsi üçün onun dəqiq və tam tədqiqi, eyni zamanda dərsliklər vasitəsilə tətbiqi əxlaqi dəyərlərin pedaqoji fikir tarixində qoyuluşu məsələsi üçün xeyli əhəmiyyətlidir.

İnsanlarda əxlaqi kamillik barəsində fikirlər peripatetik filosofların fəlsəfəsində xüsusi yer təşkil edir. Əxlaqi məsələlər əsasən "ruh və nəfs onların

mənşəyi və mahiyyəti" konteksində götürülür. Onlar "insanın dərk fəaliyyətini həmin psixik hadisələrə istinad izah etməyə çalışmışlar". Və bu konteksdə insanın əxlaqi keyfiyyətlərini göstərmək istəmişlər.

Şərq peripatetiklərindən Nəsirəddin Tusi daha çox insan əxlaqına əhəmiyyət vermişdir. Belə ki, Tusi özünün "Əxlaq-Nasiri" kitabında müsəlman dünyasında insanın konkret hansı əxlaqi keyfiyyətlərə malik olmalarından danışır. "Tusiyə görə bütün əxlaqi keyfiyyətlər insana lazım olan keyfiyyətlərdir, fəqət onlar «mötədil» – orta həddə olmalıdır" (10, 34).

XV əsrin görkəmli pedaqoqu, filosofu, mütəfəkkiri, təsəvvüf və təfsir alimi Baba Nemətullah Naxçıvani yaradıcılığında da əxlaqi dəyərlərin pedaqoji fikir tarixində rolu geniş şəkildə qiymətləndirilmişdir. "B.N.Naxçıvaniyə görə insan ürəyinin, qəlbinin məzmunu daha da əxlaqi baxımdan əhəmiyyətlidir" (11, 53). Onun yaradıcılıq fəaliyyətlərində zahidlərin və sufilərin fəlsəfi baxışları diqqətəlayiqdir. "Zahidlər və ilk sufilər dini və əxlaqi baxımdan ürəyin əhəmiyyəti, ürək təmizliyi, bunun nəticəsi olan ibadət və yaxşı davranışlar üzərində dayanmışlar" (11, 53). B.N.Naxçıvani Allahın hüzuruna ürəyi açıqla çıxmanın müsbət qurtuluşun şərti olduğunu söyləmişdir. Ürəyin təmizliyi, ürəyin yönəlməsi və ürəklə işlənən günahlar mövzusuna diqqət çəkmişdir.

Səhl ibn Abdullah ət-Tustəri: "Ürəyi ərşə, səbri kürsüyə bənzətmişdir" (11, 53). Hətta sufilər Allahı daha çox ürək ərşində axtarmışlar və ürəyi beytullah (Allahın evi) olaraq adlandırmışlar. "Təsəvvüf kitablarında tez-tez keçən, yerə və göyə sığmayan Allahın mömin qulunun ürəyinə sığdığını ifadə edən kəlam "Qüdsi" bir hədis olaraq da rəvayət edilir" (11, 54).

Araşdırmalardan belə bir nəticəyə gəlmək olar ki, pedaqoji fikir tarixində əxlaqi dəyərlər barədə islami görüşlərin yeri günün ən aktual mövzularından biridir, onun mənimsənilməsi müasir dövr insanları və xüsusən gənc nəslin formalaşması üçün xeyli əhəmiyyət kəsb edir.

## ƏDƏBİYYAT

1. "Qurani-Kərim" (tərc. Bünyadov Z. Məmmədəliyev V.) Bakı: Elm, 1992, 714 s.
2. Hüseynzadə R.L. Erkən orta əsrlər dövründə Azərbaycanda məktəb və pedaqoji fikir. Bakı: MBM, 2005, 256 s.
3. Qaralov Z.İ. Tərbiyə. I cild. Bakı: Pedaqogika, 2003, 268 s.
4. Qaralov Z.İ. Tərbiyə. II cild. Bakı: Pedaqogika, 2003, 303 s.
5. Qaralov Z.İ. Tərbiyə. II cild. Bakı: Pedaqogika, 2003, 220 s.
6. Qaralov Z.İ. İdeologiya və mənəviyyat. Bakı: Hüquq, 2008, 484 s.
7. Rüstəmov F. Pedaqogika tarixi. Bakı: Nurlan, 2006, 236 s.
8. İbrahimov S.M. Heydər Əliyev və əxlaqi dəyərlər. Naxçıvan: Əcəmi, 2013, 280 s.
9. İbrahimov S.M. Nemətullah Naxçıvani: XV əsrin görkəmli təsəvvüf və təfsir alimi. Naxçıvan: Əcəmi, 2018, 104 s.
10. İbrahimov S.M. Şərq peripatetizmi fəlsəfəsində insan amilinin rolu. Naxçıvan, "İdeya" 2011, 75 s.
11. İbrahimov S.M. Baba Nemətullah Naxçıvaninin yaradıcılıq görüşlərində

filosof və kəlamçıların fikirlərinə tənqidi yanaşma səbəbləri/. AMEA NB İncəsənət, Dil və Ədəbiyyat İnstitutu. Axtarışlar (folklor, ədəbiyyat, dil, sənətşünaslıq və tarix seriyası), Cild 8, №1(27). Naxçıvan: Tusi, 2018, səh. 51-55

12. Əbu Həmid Əl-Qəzali. Kimiyayi-Səadət (Səadət Kimyası). I cild. Bakı: Şərq-Qərb, 1986, 138 s.

**РЕЗЮМЕ**

**САБУХИ ИБРАГИМОВ**

**МЕСТО ИСЛАМСКИХ ВОЗЗРЕНИЙ НА МОРАЛЬНЫЕ ЦЕННОСТИ В ИСТОРИИ ПЕДАГОГИЧЕСКОЙ МЫСЛИ**

В статье наряду со всесторонним описанием вопросов нравственного воспитания и высокой оценкой значения морали широко освещены также исследование и анализ вклада нравственных ценностей в историю педагогической мысли, идеи и высказывания в связи с педагогической деятельностью, изложенные в Священной Книге Ислама - Коране, назидательные изречения Пророка Мухаммеда (мир ему и благословение), Пресвятого Али (мир ему и благословение) и других выдающихся ученых и мыслителей.

Отмечено, что Коран является самым богатым источником нравственности в истории педагогической мысли. До сего дня ученые, теологи, философы и педагоги изучали его в различных аспектах, но так и не изучили полностью.

**Ключевые слова:** Мораль, ислам, история, воспитание, педагогика.

**SUMMARY**

**SABUHI IBRAHIMOV**

**THE PLACE OF ISLAM VIEWS ON MORAL VALUES IN THE HISTORY OF PEDAGOGICAL THOUGHT**

A comprehensive description of moral education issues and a high assessment of the value of morality, the study and analysis of the contribution of moral values to the history of pedagogical thought, ideas and statements in connection with educational activities cited in the Koran as the Holy Book of Islam, edifying words of the Prophet Mohammed (peace and blessings be upon him), of the Most Holy Ali (peace and blessings be upon him) and of other eminent scientists and thinkers are widely covered in this paper.

It is specified that the Koran is the richest source of morality in the history of pedagogical thought. Scientists, theologians, philosophers and educators have studied it in various aspects up to our days, but they have not fully studied it.

**Keywords:** Morality, Islam, history, education, pedagogy.

*(Pedaqogika üzrə elmlər doktoru, professor İ.Əliyev tərəfindən təqdim edilmişdir)*